AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyasi.az
*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*
№ 38 (1438), 8 - 14 oktyabr 2019-cu il
Qəzet 2001-ci ildən çıxır.

## *Qrossmeyster Teymur Rəcəbova*

Əziz Teymur,

Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən Dünya Kuboku uğrunda yarışlarda qələbə qazanmağın münasibətilə səni ürəkdən təbrik edirəm.

Sən yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək qazandığın bu qələbə ilə Dünya Kubokunun sahibi olan ilk şahmatçımız kimi Azərbaycan idmanının tarixində şanlı səhifə açdın.

Sənə ən xoş arzularımı yetirir, yeni-yeni qələbələr diləyirəm.

Hörmətlə,

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 oktyabr 2019-cu il.***



## Avropa Olimpiya Komitələrinin illik iclası keçirilib

Avropa Olimpiya Komitələrinin (AOK) Roma şəhərindəki mənzil-qərargahında Avropa Gənclər Olimpiya yay və qış festivallarının təşkilinə və keçirilməsinə cavabdeh olan Komissiyanın illik iclası keçirilib. Portuqaliyalı Xose Manuel Arauxonun başçılıq etdiyi ekspertlər qrupu Avropa Gənclər Qış Olimpiya Festivalının və bu ilin iyulunda Bakıda keçirilmiş yay festivalının yekunları ilə bağlı hesabatını təqdim edib. Komissiya, həmçinin gənclərin əsas multiidman forumunun təkmilləşdirilməsi imkanlarını öyrənib, onun beynəlxalq olimpiya komitələri və yarışlara ev sahibliyi edəcək şəhərlər üçün cəlbedici olmasını öyrənib. Xose Manuel Arauxo qeyd edib: "Bizim məqsədimiz Avropa Gənclər Olimpiya festivallarının Avropa Oyunları və gənclərin olimpiya oyunları ilə uyğun olmasını təmin etməkdir. Elə etməliyik ki, bu festivallar milli olimpiya komitələri və gənc idmançılar üçün onlar qədər cəlbedici olsun". Komissiya üzvləri oktyabrın 24-də Varşavada keçiriləcək İcraiyyə Komitəsinin iclasında müzakirə olunacaq tövsiyələrin siyahısını AOK-un vitse-prezidenti Nils Nyuqora təqdim ediblər. AOK-un idman direktoru Piter Bryul Avropa Gənclər Olimpiya Festivalının idman proqramının təkmilləşdirilməsi istiqamətində görülən işlərlə bağlı hesabatla çıxış edib. Bu işlər Beynəlxalq Olimpiya Komitəsi və beynəlxalq federasiyalarla birgə aparılıb.

Tədbirdə, həmçinin Avropa Olimpiya Komitələri Gənclər Olimpiya Festivalı Komissiyasının üzvü, Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev iştirak edib.

Xatırladaq ki, növbəti qış festivalı 2021-ci il fevralın 6-dan 13-dək Finlandiyanın Vuokatti şəhərində keçiriləcək. XVI Avropa Gənclər Olimpiya Festivalı isə 2021-ci il iyulun 24-dən avqustun 1-dək Slovakiyanın Banska Bistritsa şəhərində təşkil olunacaq. İtaliyanın Friuli-Venetsiya-Culia şəhəri isə 2023-cü ilin XVII Avropa Gənclər Olimpiya Festivalına ev sahibliyi edəcək.

## Teymur Rəcəbov Dünya Kubokuna sahib olub

Teymur Rəcəbov Azərbaycanın şahmat tarixində ilk dəfə Dünya Kubokunun qalibi olub. Oktyabrın 4-də Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən turnirin finalında çinli Dinq şahmatçımız üçüncü qarşılaşmada 45-ci gedişdə rəqibini məğlub edib. Şahmatçıların dördüncü görüşündə də heçə qeydə alınıb - 2:2.

Beləliklə, rəqibini 6:4 hesabı ilə məğlub edən T.Rəcəbov Azərbaycanın şahmat tarixində ilk dəfə Dünya Kuboku turnirinin qalibi olub.

Xatırladaq ki, turnirdə mübarizəyə altmışdörddəbir finaldan başlayan T.Rəcəbov birinci mərhələdə Farer Adaları təmsilçisi Helgi Ziskanı, 1/32 finalda rusiyalı Sənan Syugirovu məğlub edib. Şahmatçımız 1/16 digər rusiyalı şahmatçı Daniil Yuffaya, 1/8 finalda isə komanda yoldaşı Şəhriyar Məmmədyarova qalib gələrək, 1/4 finala yüksəlib. O, bu mərhələdə ABŞ təmsilçisi Cefferi Xionqu, yarımfinalda isə fransalı Maksim Vaşe-Laqravı mübarizədən kənarlaşdıraraq, finala vəsiqə qazanıb.



Lireni məğlub edib. Qrossmeysterlər finalda 10 görüş keçiriblər. Şahmatçılar arasında dörd klassik partiya oynanılıb. Klassik partiyanın birinci görüşündə zəka ustaları xalları yarı bölüblər. İkinci partiyada qara fiqurlarla oyunda məğlub olan

Finalda qalib müəyyənləşmədiyi üçün oktyabrın 4-də tay-breyk qarşılaşmaları oynanılıb. Tay-breyk çərçivəsində dörd rapid yarışında da qalib müəyyənləşməyib - 2:2. Blits partiyasında isə ardıcıl iki görüşdə qələbə qazanan T.Rəcəbov turnirin qalibi olub.

Qeyd edək ki, Teymur Rəcəbov bu mötəbər yarışın finalına yüksələn ilk azərbaycanlı şahmatçı kimi ölkə idmanının tarixinə düşüb. O, finala vəsiqə ilə yanaşı, iddiaçılar turnirində birbaşa iştirak hüququ da qazanıb.

## *Olimpizm*

### Lozanna-2020 yarışları non-stop rejimində translyasiya ediləcək

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Olimpiya kanalı 2020-ci il yanvarın 9-dan 22-dək Lozannada keçiriləcək Gənclərin III Qış Olimpiya Oyunlarının (GOO) yarışlarını birbaşa efirdə göstərəcək. Bütün dünyada tamaşaçılar 300 saatdan çox translyasiyaya baxa biləcəklər. GOO-2020 günlərində kanalın onlayn platformalarında multiidman forumunun proqramında təmsil olunan gənc atletlər və idman növləri haqqında verilişlər göstəriləcək.

Olimpiya kanalının redaktoru Meri Birn deyib: "Lozannada öz həyatının əsas məqsədini - fəxri kürsünün yuxarı pilləsinə qalxmaq niyyətini reallaşdıran gənc idmançıları bütün planetimiz izləyəcək. Lozannada gənclərin oyunlarının işıqlandırılması Tokio-2020 yarışlarına hazırlığın mühüm mərhələsi olacaq.

Yanvarın 9-dan 22-dək idman həvəskarları non-stop rejimində həm yarışlardan birbaşa translyasiyaya, həm də artıq keçirilmiş yarışların lent yazılarına Olimpiya kanalının rəsmi rəqəmsal məkanlarında baxa biləcəklər".

Gənclərin III Qış Olimpiya Oyunları 2020-ci il yanvarın 9-dan 22-dək Lozannada keçiriləcək. Dünyanın 70-dən çox ölkəsindən olan 15-18 yaşlarında 1880 idmançı biatlon, xizək yarışları, hokkey, dağ-xizək idmanı, fiqurlu konkisürmə və başqa idman növlərində ən güclü atletləri müəyyən edəcəklər.

### Tomas Bax Sebastian Koe ilə görüşüb

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Beynəlxalq Atletika Federasiyasının (IAAF) prezidenti Sebastian Koe ilə görüşüb.

T.Bax ingiltərəli mütəxəssisi yenidən IAAF-ın prezidenti seçilməsi münasibətilə təbrik edib. Görüşdə gənclərin idmana cəlb olunması, idmanın siyasiləşdirilməməsi və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb. "İdmanın səmərəliliyini qoruyub saxlamaq üçün biz ciddi surətdə birtərəflilik nümayiş etdirməli, irqçiliyə yol verməməliyik", - deyə BOK prezidenti bildirib. S.Koe qeyd edib ki, idmanda hər hansı təzyiq yolverilməzdir və bunun qarşısı alınmalıdır. Atletika üzrə ikiqat Olimpiya çempionu S.Koe 2015-ci ildə IAAF-ın prezidenti vəzifəsinə seçkilərdə qalib gəlib. O, IAAF-ın Dohada keçirilən növbəti konqresində yenidən bu vəzifəyə seçilib.

## *Rövnəq Abdullayev cüdo abidəsinin açılış mərasimində iştirak edib*

İsveçrənin Lozanna şəhərindəki Olimpiya Muzeyinin qarşısında ilk dəfə cüdo abidəsinin açılış mərasimi keçirilib.

Tədbirdə Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Beynəlxalq Cüdo Federasiyasının rəhbəri Marius Vizer, Avropa Cüdo İttifaqına başçılıq edən Sergey Soloveyçik, Azərbaycan Cüdo Federasiyasının prezidenti, Beynəlxalq Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü Rövnəq Abdullayev və tanınmış idman xadimləri iştirak ediblər.

Açılış mərasimində T.Bax və M.Vizer çıxış edərək idmanın bu növünün tarixindən və populyarlığından bəhs ediblər. Sonra onlar abidənin üzərindən ağ örtüyü götürüblər.

Mərasim çərçivəsində R.Abdullayevin T.Bax və M.Vizer ilə görüşlərində Azərbaycanda idmanın, o cümlədən cüdonun inkişafı və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.



## *Anons*

*Ölkəmizdə ilk dəfə olaraq I Budo Festivalı keçirilib* Səh. 2
*Kazan gələn il I MDB ölkələri Oyunlarına ev sahibliyi edəcək* Səh. 3
*AFFA-nın bəyanatı* Səh. 2
*Səs-sorağımız azarkeşlərlə dolu stadionlardan gəlsin!* Səh. 6

# Ölkəmizdə ilk dəfə olaraq I Budo Festivalı keçirilib

Bakı İdman Sarayında Yaponiya səfirliyinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin əməkdaşlığı ilə I Azərbaycan Budo Festivalı keçirilib. Tədbirdə Ekologiya naziri, Azərbaycan ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Muxtar Babayev, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Məclisin gənclər və idman komitəsinin sədri, Azərbaycan Karate-do Federasiyaları Assosiasiyasının prezidenti Ülvi Quliyev, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Azərbaycan Milli Paralimpiya Komitəsinin sədri İlqar Rəhimov, Yaponiyanın Azərbaycandakı səfiri Teruyuki Katori və ölkəmizdə fəaliyyət göstərən idman federasiyalarının prezidentləri, həmçinin rəsmi şəxslər iştirak ediblər. Festivalın açılış mərasimində Azərbaycanın və Yaponiyanın dövlət himnləri səsləndirilib.



Tədbirdə çıxış edən Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori Azərbaycanda birinci budo festivalının keçirilməsindən məmnunluğunu bildirib. Ölkəmizdə budonun inkişafını vurğulayan diplomat bildirib ki, bu, Azərbaycanda yapon döyüş sənətlərinə marağın xeyli artmasının daha bir nümunəsidir.



“Məndə olan məlumatlara görə Azərbaycanda yapon döyüş sənətləri üzrə məşğul olanların sayı 40-50 min nəfərə yaxındır. Bu məni çox sevindirir. Yaponiyada budonun 9 növü var. Bugünkü tədbirdə ölkəmizdə yaxşı tanınan cüdo, karate, aikido, ciu-citsu, sumo və kendo idman növləri üzrə 90-a yaxın idmançı nümunəvi çıxışlar nümayiş etdirəcəklər. İdmançılarınız yapon döyüş növləri üzrə beynəlxalq arenada dəfələrlə qalib gələrək Azərbaycanın bayrağını zirvələrə qaldırıblar. Gələn il Tokioda keçiriləcək 32-ci Yay Olimpiya Oyunlarında ölkənizi təmsil edən çox sayda idmançının iştirak edəcəyini gözləyirik. İnanıram ki, azərbaycanlı idmançılar Tokioda mükafatçılar sırasında yer alacaqlar”, - deyə Teruyuki Katori bildirib.

Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev festivalın əhəmiyyətini yüksək qiymətləndirib. O, bildirib ki, bu tədbirin Azərbaycanda ilk dəfə keçirilməsinə baxmayaraq, burada budo döyüş növləri xeyli inkişaf edib. “Ölkəmizdə idmanın inkişafına yüksək səviyyədə diqqət və qayğı göstərilir. Məhz bu qayğı nəticəsində bu gün Azərbaycan beynəlxalq arenada idman ölkəsi kimi tanınır. Bugünki festivalda nümayiş olunan idman növləri Gənclər və İdman Nazirliyinin diqqət mərkəzindədir. Bu idman növlərinə aid xüsusi bölməmiz fəaliyyət göstərir. İnanıram ki, belə tədbirlər gələcəkdə ənənə halını alacaq. Gənclər və İdman Nazirliyi bu idman tədbirinin keçirilməsinə bundan sonra da dəstək verməyə hazırdır”, - deyə nazir müavini qeyd edib.

Milli Məclisin gənclər və idman komitəsinin sədri, Azərbaycan Karate-do Federasiyaları Assosiasiyasının prezidenti Ülvi Quliyev festivalın təşkilinə görə minnətdarlığını bildirib. Dövlət başçısının diqqət və qayğısı sayəsində ölkəmizdə ən nüfuzlu beynəlxalq turnirlərin yüksək səviyyədə təşkil edildiyini vurğulayan natiq bu baxımdan I Avropa, IV İslam Həmrəyliyi Oyunlarını, Formula 1 yarışlarını və s. qeyd edib. O, festivalın ölkəmizdə yapon döyüş sənətlərinin inkişafına və kütləviliyinin artırılmasına mühüm töhfə verəcəyini də qeyd edib.

“İlk dəfədir ki, Azərbaycanda budo festivalı keçirilir. Budo festivalı yapon döyüş növlərini əhatə edir. Bu festivalın keçirilməsində əsas məqsəd yapon döyüş növlərinin təbliğatıdır. Biz belə tədbirlər təşkil etməklə Azərbaycan gənclərini sağlam həyat tərzi keçirməyə dəvət edirik. İstəyirik ki, gənclərimiz fiziki, əqli və mənəvi cəhətdən sağlam olsunlar”, - deyə Ülvi Quliyev bildirib.

Çıxışlardan sonra yaponiyalı səfir Teruyuki Katori Azərbaycanda yapon döyüş sənətlərinin inkişafındakı xidmətləri olan müvafiq federasiyaların prezidentlərinə diplomlar təqdim edib.

Sonra iştirakçılara müxtəlif döyüş sənətləri ilə tanışlıq imkanı da yaradılıb. Burada yapon döyüş sənətinin altı növü - aikido, karate, kendo, cüdo, ciu-citsu və sumo üzrə nümunəvi çıxışlar təqdim olunub.

Tədbirdə həmçinin Yaponiyanın mədəniyyəti, mətbəxi, şirkətləri, idman federasiyaları və təşkilatları ilə bağlı stendlər də nümayiş olunub.

Sonda Festivalın Təşkilat Komitəsinin üzvləri “Olimpiya dünyası” qəzetinə fikirlərini bildiriblər.

Təşkilat Komitəsinin üzvü, Aikido Federasiyasının nümayəndəsi Ramin Məmmədzadə festivalın əhəmiyyətindən danışaraq, tədbirin gənclərin fiziki və mənəvi sağlamlığının inkişafında, həmçinin onların sağlam həyat tərzinə cəlb olunmasında böyük rol oynayacağını bildirib. Təcrübəli aikido ustası festivalın ənənəvi hal alacağını və gələcək illərdə daha geniş şəkildə keçiriləcəyini qeyd edib.

Azərbaycan Kendo Təşkilatının prezidenti Ramazan Ağayev festivalda döyüş növləri ilə yanaşı, yapon mədəniyyətinin təbliğinin bu ölkə ilə Azərbaycan arasında olan münasibətlərin daha da yaxşılaşdırılmasında böyük rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə festivalın əhəmiyyətindən biri də ondan ibarətdir ki, arenaya toplaşan tamaşaçılar yapon döyüş sənətləri haqqında ətraflı məlumat əldə edərək, gələcəkdə hansı idman növü ilə məşğul olmağı özləri üçün müəyyən edə biləcəklər.

Festivalın Təşkilat Komitəsinin üzvlərindən biri olan “Azərbaycan Wado-Ryu Karate-Do” klubunun prezidenti, Əməkdar məşqçi Gündüz Mahmudov Azərbaycan döyüş sənətləri tarixində ilk dəfə olaraq keçirilən festivala əsas hazırlığın ötən ilin oktyabr ayından başladığını qeyd edib. O, bildirib ki, tədbir Azərbaycanda fəaliyyət göstərən Yaponiya səfirliyinin və şirkətlərinin maliyyə dəstəyi ilə həyata keçirilib. “Bu tədbiri təşkil etməkdə əsas məqsəd Azərbaycanda yapon döyüş sənətlərini təbliğ etmək, bu sahədə fəaliyyət göstərən federasiyaların nümayəndələrini bir araya toplamaq, eyni zamanda ölkəmizlə Yaponiya arasında olan mədəni əlaqələri gücləndirməkdən ibarət idi. Düşünürəm ki, festival istədiyimiz səviyyədə keçdi. Bu gün yeniyetmə və gənclərdə hansı idman növünü seçmək sualı yaranır. Təbii ki, düzgün qərar vermək üçün hər növün xüsusiyyətlərini anlamaq, müsbət və mənfi tərəflərini bilmək lazımdır. İnanıram ki, budo festivalında iştirak edən şəxslər də məhz bu suallara mükəmməl cavab tapıb, düzgün qərar verərək seçim edə biləcəklər. Biz gələcəkdə də ənənəvi olaraq bu festivalı keçirməyi planlaşdırırıq”, - deyə Gündüz Mahmudov bildirib.

*Azər Əlizadə*

# AFFA-nın bəyanatı

***UEFA Avropa Liqası turnirinin qrup mərhələsi çərçivəsində oktyabrın 3-də Lüksemburq şəhərindəki “Josy Barthel” stadionunda keçirilmiş “Düdelanj” - “Qarabağ” oyununda siyasi təxribata yol verilib.***

Oyunun 30-cu dəqiqəsində, “Qarabağ” komandasının vurduğu ikinci qoldan sonra meydanın üzərində uçan aparat - dron peyda olub. Üzərində separatçı, qondarma “Dağlıq Qarabağ Respublikası”nın bayrağı asılmış idarə olunan uçuş aparatı meydanın mərkəzinə doğru yönəldilib. Bunun nəticəsində baş hakim oyunun dayandırılması barədə qərar qəbul edib. Təxminən 20 dəqiqədən bir qədər artıq yaranmış məcburi fasilədən sonra oyun dayandırıldığı dəqiqədən davam etdirilib. Təxribata görə yaranmış fasilə müddətində Lüksemburqun idman naziri insidentə görə Lüksemburq hökuməti adından “Qarabağ” komandasından və azarkeşlərdən üzr istəyib. “Qarabağ” klubunun nümayəndələri yaranmış vəziyyətlə əlaqədar narahatlıq və narazılıqlarını yerindəcə “Düdelanj” klubuna və UEFA təmsilçilərinə bildiriblər. AFFA rəhbərliyi təcili şəkildə UEFA ilə əlaqə saxlayaraq hadisə ilə bağlı narahatlığını ifadə edib. Bundan əlavə, AFFA artıq UEFA-ya şikayət məktubu ünvanlayaraq müvafiq qaydada ölçü götürülməsini tələb edib.

Futbol - qarşılıqlı ehtiram, idman ruhu və bərabərlikdir. Təəssüf ki, bəzi qüvvələr futbolu siyasi təxribatlar meydanı kimi görürlər. “Josy Barthel” stadionunda rastlaşdığımız hadisə, eyni zamanda, futbolçuların təhlükəsizliyini şübhə altına salır və ümid edirik ki, gələcəkdə bu cür halların baş verməməsi üçün müvafiq addımlar atılacaq. İnanırıq ki, UEFA araşdırma apararaq oyunun gedişində baş vermiş xoşagəlməz hadisə ilə bağlı müvafiq qərar qəbul edəcək.

AFFA “Qarabağ” komandasının futbolçularına təxribata uymadıqlarına, emosiyalarına nəzarət etdiklərinə və peşəkar davranışlarına görə təşəkkür edir. Komanda UEFA-nın dəyərlərinə əsil ehtiramını nümayiş etdirdi: hakimin qərarına hörmət, rəqibə hörmət, azarkeşlərə hörmət!

Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir! Erməni silahlı birləşmələrinin işğalı nəticəsində Azərbaycan tarixi torpaqlarının bir hissəsini itirib, 1 milyondan artıq həmvətənimiz uzun illərdir ki, qaçqın və məcburi köçkün şəraitində yaşamaq məcburiyyəti qarşısında qalıb. “Qarabağ” futbol dünyasında azsaylı klublardan biridir ki, siyasi münaqişə üzündən, erməni silahlı birləşmələrinin işğalı ucbatından ev oyunlarını doğma stadionunda, təmsil etdiyi Ağdam rayonunda keçirə bilmir.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası bütün futbol oyunlarının FIFA və UEFA-nın müəyyənləşdirdiyi dəyərlərə hörmət ruhunda keçirilməsini dəstəkləyir, futbol oyunları zamanı siyasi təxribat cəhdlərini qəti şəkildə pisləyir!

# AGF payız mövsümündə yerli yarışlar keçirməyə hazırlaşır

Uğurlu təşkil olunmuş irimiqyaslı beynəlxalq yarışlardan sonra Azərbaycan Gimnastika Federasiyası (AGF) payız mövsümündə yerli yarışlar keçirməyə hazırlaşır. İlin son aylarında gimnastikanın 6 növü üzrə turnirlər təşkil ediləcək. Belə ki, oktyabrın 10-13-də bədii gimnastika üzrə 26-cı Azərbaycan və Bakı birinciliyi, 6-cı bölgələrarası kubok və aerobika gimnastikası üzrə 5-ci ölkə birinciliyi və paytaxt çempionatı keçiriləcək. Bu yarışlar Milli Gimnastika Arenasının əsas zalında baş tutacaq. Növbəti yarışlar isə tamblinq üzrə 17-ci Azərbaycan birinciliyi və çempionatı və batut gimnastikası üzrə 5-ci ölkə birinciliyi və çempionatı olacaqdır. Tamblinq üzrə turnir noyabrın 8-də Bakı Gimnastika Məktəbində, batut gimnastikası üzrə yarış isə ertəsi gün Bakı Olimpiya Kompleksində təşkil ediləcək.



İlin sonuncu yerli yarışları isə noyabrın 15-16-da Sumqayıtda keçiriləcək. Bu dəfə gimnastikanın 4 növü üzrə yarışlar - kişi və qadın idman gimnastikası üzrə 26-cı Azərbaycan çempionatı və Bakı birinciliyi, akrobatika gimnastikası üzrə 26-cı respublika və paytaxt çempionatı və aerobika gimnastikası üzrə 5-ci Bakı birinciliyi və ölkə çempionatı birləşdirilmiş şəkildə Sumqayıt Olimpiya İdman Kompleksində baş tutacaq.

Yerli yarışların Azərbaycanın müxtəlif şəhərlərində keçirilməsi gimnastikanın bu bölgələrdə daha da inkişafına, eləcə də gənc nəslin bu idman növlərinə marağının artırılmasına xidmət edir.

# *“GymStar Kids Cup”da 12 gimnastımız yarışıb*

Moskvada “GymStar Kids Cup” açıq beynəlxalq gimnastika turniri keçirilib. Müxtəlif ölkələrdən 4-14 yaşlı 100-dən çox gimnastın yarışdığı turnirdə Azərbaycanı 12 idmançı təmsil edib. Turnirdə gimnastlarmızın çıxışları böyük maraqla qarşılanıb. “GYM Star Stolitsa” idman klubunun təsisçisi Aleksandra Laçkova turnirin açılış mərasimindəki çıxışında Azərbaycan gimnastlarının yarışlarda iştirakından məmnunluğunu ifadə edərək deyib: “Bilirsiz ki, klubumuzun Bakı bölməsində də balacalar məşq edirlər və müxtəlif yarışlara hazırlaşırlar”. Yarışlarda uğurla çıxış edən Azərbaycan gimnastları fəxri kürsüdə yer alıblar. Gimnastlarımız Rusiya turnirindən sonra Budapeştdə və Dubayda keçiriləcək yarışlara hazırlaşacaqlar.



## Kazan gələn il I MDB ölkələri Oyunlarına ev sahibliyi edəcək

Oktyabrın 11-də Aşqabadda Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının iclası keçiriləcək. Həmin iclasdan əvvəl Xarici İşlər Nazirləri Şurasının iclası olacaq. Xarici siyasət idarələri başçılarının müzakirə edəcəyi məsələlərdən biri də Birinci MDB ölkələri Oyunlarının təşkili məsələsi olacaq. Həmin Oyunların 2020-ci ildə Kazanda keçirilməsi planlaşdırılır. Gələn il avqustun 20-dən 27-dək keçiriləcək Oyunlarda Azərbaycan, Türkmənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Ermənistan, Özbəkistan və ola bilsin Ukraynadan olan 2000-dən çox idmançı iştirak edəcək. Onlar cüdo, sambo, çimərlik voleybolu, çimərlik həndbolu, mini futbol, boks, tayboks, şahmat, idman rəqsləri, qılıncoynatma, karate, daşqaldırma, armrestlinq və mas-restlinq, atletika, basketbol (3x3), idman güləşi və qurşaq güləşi yarışlarında qələbə uğrunda mübarizə aparacaqlar.



Yarışlara başqa ölkələri də dəvət etməyin mümkünlüyü məsələsi nəzərdən keçiriləcək. Birlik Oyunları iki ildə bir dəfə - Olimpiya ilində keçiriləcək.

Oyunlar dövründə "İdman ərazisi" adlı MDB forumu və hər bir ölkənin ənənələrinin populyarlaşmasına şərait yaradacaq, iştirakçıları daha da yaxınlaşdıracaq müxtəlif mədəni tədbirlər keçirilməsi də nəzərdə tutulur.

## *Dünya karatesinin "Brilyant"ı qızıl medal həsrətinə Moskvada son qoydu*

Rusiyanın paytaxtı Moskvada keçirilən "Karate-1" Premyer Liqa turnirinə yekun vurulub. Azərbaycan karateçiləri nüfuzlu yarışda üç medal qazanıblar. Yarışda 75 kq çəki dərəcəsində mübarizə aparan Rafael Ağayev mərakeşli Yassin Sekuri, Rodriqo İbanez (İspaniya) və Slovakiya təmsilçisi Matus Lieskovskini məğlub edərək, yarımfinala yüksəlib. Finala gedən yolda karateçimizin rəqibi İran təmsilçisi Bəhmən Əsgəri olub. Rəqibinə qalib gələn R.Ağayev turnirin finalına yüksəlib. Beşqat dünya çempionumuz qızıl medal uğrunda görüşdə qazaxıstanlı Yermek Aynəzərovu üstələyərək, uzun müddətdən sonra qızıl medala layiq görülüb.

Digər karateçimiz İrina Zaretska (68 kq) Braziliya təmsilçisi Natalia Spiqolon, danimarkalı Ketrin Pederson və çinli Linqlinq Tanqı məğlub edərək yarımfinala vəsiqə qazanıb.




Marina Pakoviçə (Monteneqro) qalib gələn İ.Zaretska turnirin finalına adlayıb. Həlledici görüşdə çinli Qonq Liyə qalib gələn İ.Zaretska Premyer Liqa turnirinin qızıl medalını qazanıb.

Nuranə Əliyeva (50 kq) isə turniri üçüncü pillədə başa vurub.

"Karate -1" Premyer Liqa turnirinin Moskva mərhələsində 85 ölkədən 642 idmançı yarışıb.

## Gənc taekvondoçuların İspaniya sınağı üç bürünc mükafatla yadda qaldı

İspaniyanın Marina Dor şəhərində keçirilən taekvondo üzrə gənclər arasında Avropa birinciliyinə yekun vurulub. Baş məşqçi Məmməd



Abdullayev və böyük məşqçi Zahid Məmmədovun rəhbərliyi altında Azərbaycan taekvondoçuları da, yarışda mübarizə apardılar. Komandamız qitə birinciliyini 3 bürünc medalla başa vurub.

Təmsilçilərimizdən 51 kq çəki dərəcəsində mübarizə aparan Səyyad Dadaşov Bolqarıstan, Hollandiya və Serbiya idmançısına qalib gələrək yarımfinala yüksəlib. Həlledici görüşə vəsiqə uğrunda macarıstanlı taekvondoçu ilə qarşılaşan Səyyad məğlub olaraq yarışı bürünc medalla başa vurub. Qitə birinciliyində 68 kq çəki dərəcəsində dayanq üzərinə çıxan Cavad Ağayev də bürünc medala sahib olub. Gənc taekvondoçumuz xorvatiyalı Josip Bilici, almaniyalı Jona Porşu və erməni idmançı İqor Karapetyanı yarışdan kənarlaşdıraraq, yarımfinala yüksəlib. Yarımfinalda rusiyalı Erik Ageenka ilə döyüşdə cütlüyün qalibini qızıl xal həll edib. Rusiya idmançısı qarşılaşmanın qalibi olub. Beləliklə idmançımız qitə çempionatının bürünc medalına layiq görülüb.

Avropa birinciliyinin sonuncu günündə komandamızın daha bir üzvü fəxri kürsüdə yer alıb. Yarışda 78 kq çəki dərəcəsində iştirak edən Taleh Süleymanov İspaniya, Rusiya və Ukrayna taekvondoçularına qalib gəlib. Yarımfinala adlayan Taleh digər rusiyalı idmançıya məğlub olaraq Avropa birinciliyinin bürünc medalına sahib çıxıb.

## Milli komandamızın üzvü Plzendə fərqlənib

Karate üzrə 16-17 yaşlılardan ibarət Azərbaycan milli komandasının üzvü Polina Qurenko (53 kq) Çexiyanın Plzen şəhərində keçirilən uşaq, yeniyetmə və gənclər arasında 20-ci açıq beynəlxalq turnirdə iki qızıl medal qazanıb.

14-15 yaşlı yeniyetmələr arasında ikiqat Avropa çempionu P.Qurenko həm öz yaş kateqoriyasında, həm də, 21 yaşadək idmançılar arasında bütün rəqiblərini məğlub edib. Beynəlxalq turnirdə 18 ölkədən 921 karateçi iştirak edib.

P.Qurenko oktyabrın sonunda Çilidə dünya çempionatında mübarizə aparacaq. Çexiyada açıq karate kuboku yarışı gənclər arasında dünya çempionatına hazırlıq xarakteri daşıyıb.

## Nəhənglərimiz Avropa birinciliyini iki medalla başa vurdular

Macarıstanın paytaxtı Budapeştə sumo üzrə Avropa birinciliyi keçirilib. Komandamız yarışlarda Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında mübarizə aparıb. Qitə birinciliyində ölkəmizi Məhərrəm Eyvazov, Nahid Vəliyev, Əli Süleymanov, Hüseyn Hüseynov, Elcan Tarverdiyev və Ağamalı Abdulov təmsil ediblər. Yarışda 60 kq çəki dərəcəsində mübarizə aparan Nahid Vəliyev birinci görüşündə estoniyalı idmançıya qalib gəlib. Macarıstan idmançısını məğlub edən edən sumoçumuz yarımfinalda Ukrayna idmançısına uduzub. N.Vəliyev bürünc medal uğrunda mübarizədə polşalı idmançını üstələyərək üçüncü olub. Bu çəkidə yarışan digər idmançımız Məhərrəm Eyvazov Rusiya, Macarıstan və Polşa təmsilçilərini mübarizədən kənarlaşdıraraq, finala yüksəlib. Finalda ukraynalı rəqibinə məğlub olan M.Eyvazov gümüş medalla kifayətlənib.

Qeyd edək ki, yarışlarda Azərbaycanı hakim qismində Rəsul Həsənov təmsil edib.

## Bakı çempionatının qalibləri müəyyənləşib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Bakı Dövlət Cıdır Meydanında kross qaçışı üzrə paytaxt çempionatı keçirilib. Yarışda 8 klubun idmançıları mübarizə aparıblar. Qadınların yarışında 1 kilometr məsafəyə qaçış yarışlarında Samirə Cəbrayılzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Günel Manafova 2, Natavan Etibarova 4, Anna Yusupova isə 6 kilometr məsafəyə qaçış yarışında fərqləniblər.

Kişilərin mübarizəsində Mahmud Mehdiyev 2, Nadir Əliyev 3, Eldar Qəzənfərov 6, Elman Abışov isə 10 kilometr məsafəyə qaçışda qızıl medal qazanıblar.

İlk üçlüyü tutan idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

## Muay-tay üzrə dünya çempionatında uğurlu çıxış

Azərbaycan idmançıları Antalyada yeniyetmə və gənclər arasında keçirilən muay-tay idmanının ifma versiyası üzrə dünya çempionatında iki qızıl, bir gümüş və dörd bürünc medal qazanıblar. Mundialda idmançılarımızdan Rəvan Ağazadə (67 kq) və Musa Nuruzadə (51 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Rəvan Qasımov (54 kq) isə ancaq finalda uduzaraq gümüş medalla kifayətlənməli olub. Səlahəddin Qocazadə (36 kq), Amin Əlili (38 kq), Murad Nuruzadə (40 kq) və Ayxan Əmrahov (58 kq) isə milli komandamızın aktivinə bürünc medallar yazdırıblar. Yarışda Azərbaycanı 16 idmançı və 2 hakim təmsil edib. Milli komandamız dünya çempionatında federasiya prezidenti Azər Həsənsoyun və böyük məşqçi Fəxri Əliyevin rəhbərliyi ilə mübarizə aparıb. Qeyd edək ki, bu yüksək Azərbaycan muay-tayı tarixində ən böyük nəticədir.

## Azərbaycanın triatlon idmanının tarixində yeni mərhələ

Azərbaycanda triatlonun inkişafı keyfiyyətcə yeni səviyyəyə çatıb. Bakıdakı Avropa Oyunları Parkında "Baku Triathlon 2019" açıq turniri bunun növbəti təzahürlərindən biridir. Həvəskar triatlonçuların iştirak etdikləri yarış Azərbaycanın triatlon idmanının tarixində yeni mərhələ olub. Gənclər və İdman Nazirliyinin və Azərbaycan Triatlon Federasiyasının (ATF) təşkilatçılığı ilə turnir sprint məsafəsi üzrə baş tutub. İştirakçılar əvvəlcə 500 metr məsafəyə üzgüçülük yarışında gücünü sınayıblar. Sonra 20 kilometr məsafəyə velosiped, 5 kilometr məsafəyə isə qaçış yarışlarında mübarizə aparıblar.



Birincilikdə Azərbaycan idmançıları ilə yanaşı, əcnəbi həvəskar triatlonçular da, çıxış ediblər. ABŞ, Avstraliya, Böyük Britaniya, Fransa, Finlandiya təmsilçiləri hazırlıq səviyyələrinin heç də pis olmadığını nümayiş etdiriblər. Avstraliyalı Sara Makkey isə qadınların yarışlarında birinci yeri tutub.

Əlli iki idmançının iştirak etdiyi turnirdə Vüqar Salahov qalib gəlib. Səbuhi Səfərov gümüş, Serqan Abbasov isə bürünc medal qazanıblar. Finiş xəttinə çatmış idmançıların hamısına iştirakçı kimi medallar təqdim edilib.

Qadınların yarışında Avstraliya nümayəndəsi Sara Makkey birinci, finlandiyalı Satu-Mariya Sarkila ikinci, İstanbul marafonunun iştirakçısı Adilə Süleymanova isə üçüncü olublar.

## Dohada birinci Dünya Çimərlik Oyunları başlayır

Oktyabrın 12-dən 16-dək Qətərin paytaxtı Dohada birinci Dünya Çimərlik Oyunları keçiriləcək. Milli Olimpiya Komitələri Assosiasiyasının (ANOC) bayrağı altında təşkil olunacaq yarışda 97 ölkədən 1300-dək idmançı birincilik uğrunda mübarizə aparacaq.

Dörd məkanda təşkil olunacaq turnirdə atletlər 13 idman növündə 350 dəst medal uğrunda yarışacaqlar.

"Doha 2019"da ölkəmizi yeddi idmançı təmsil edəcək. Çimərlik güləşi yarışlarında Pənah İlyaslı (70 kq), İbrahim




Yusubov (80 kq), Kənan Əliyev (90 kq) və Oyan Nəzəriani (90 kq-dan yuxarı) birincilik uğrunda mübarizə aparacaqlar. Akvatlon yarışlarında millimizin üzvləri Rostislav Pevtsov və Kseniya Levkovskaya çıxış edəcəklər. Karateçimiz Roman Heydərov isə kata yarışlarında mübarizə aparacaq.

Qətər 2006-cı ildə Asiya, 2011-ci ildə Pan Ərəb Oyunlarına ev sahibliyi edib.

# Sentyabr

## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında



## Gimnastika

Batumidə keçirilən idman gimnastikası üzrə beynəlxalq turnirdə Azərbaycan yığma komandasının gənc gimnastları Ağamurad Qəhrəmanov, Sərvər Əliyev və Milana Minakovskaya iştirak ediblər. Ağamurad Qəhrəmanov ən yaxşı nəticəsini turnikdə göstərib. Belə ki, idmançımız bu alətlə bürünc medala sahib olub. Milana Minakovskaya isə 3 final mərhələsində çıxış edib. O, müxtəlif hündürlüklü qollarda beşinci, gimnastika tiri və sərbəst hərəkətlərdə altıncı yerdə qərarlaşıb. Çoxnövçülük xallarına əsasən isə təmsilçimiz dördüncü olub.

* * *

Türkiyənin Antalya şəhərində batut gimnastikası üzrə beynəlxalq turnir keçirilib. 70 nəfərin iştirak etdiyi yarışda Azərbaycan gimnastları da mübarizə aparıblar. Təmsilçilərimizdən uğurlu çıxışı ilə yadda qalan Hüseyn Abbasov 48,400 xal toplayaraq, turnirin bürünc medalına layiq görülüb.

* * *

Macarıstanın Sombatxey şəhərində idman gimnastikası üzrə “Challenge” seriyasına aid dünya kubokunun final mərhələsi keçirilib. 25 ölkənin iştirakı ilə keçirilən final yarışlarında Azərbaycan idmançısı da mübarizə aparıb. Yarışlarda yeganə təmsilçimiz Marina Nekrasova dayaqlı tullanma proqramında bütün rəqiblərini üstələyərək qızıl medala sahib olub.

* * *

Bakı Gimnastika Arenasında bədii gimnastika üzrə 37-ci dünya çempionatı keçirilib. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışda dünyanın 61 ölkəsindən 300-dən artıq gimnast iştirak edib. Azərbaycanı dünya çempionatında 9 gimnastımız təmsil edib. 116 gimnastın mübarizə apardığı yarışda təmsilçimiz Zöhrə Ağamirova 60,050 xalla 21-ci olub və finala vəsiqə qazanıb. Dünya çempionatının komanda yarışlarında isə millimiz 147,050 xalla 13-cü pilə yer alıb. Beləliklə, gimnastımız Zöhrə Ağamirova və qrup komandamız Tokio-2020 Olimpiadasına lisenziyanı təmin edib.

* * *

Rusiyanın Xabarovsk şəhərində batut gimnastikası və tamblinq üzrə dünya kuboku yarışları keçirilib. Turnirin tamblinq üzrə yarışlarında yeganə təmsilçimiz Mixail Malkin ən yüksək göstəriciyə nail olub. Gimnastımız bütün rəqiblərini geridə qoyaraq, 76.300 xalla qızıl medal qazanıb.

## Atletika

Nazim Babayev Xorvatiyanın paytaxtı Zaqrebdə təşkil olunan “World Challange” turnirində ikinci olub. Üçtəkanla tullanmada mübarizə aparan idmançımız yarışda 16,68 metr məsafəyə tullanaraq yalnız ABŞ idmançısı Kris Benarddan geri qalaraq 2-ci yeri tutub. Gümüş mükafata yiyələnən atlet çempiondan 29 santimetr aşağı nəticəyə imza atıb.

## Cüdo

Özbəkistanın paytaxtı Daşkənddə cüdo üzrə Qran-pri turniri keçirilib.

Azərbaycan millisi Daşkənd turnirində iki gümüş medala sahib çıxıb. Mötəbər yarışın ilk günü qadın cüdoçumuz Leyla Əliyeva Qran-pridə 2-ci yeri tutub. Komandamıza digər gümüş medalı kişilər arasında -100 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Zelim Kotsoyev qazandırıb.

* * *

Qazaxıstanın Almatı şəhərində keçirilən cüdo üzrə yeniyetmələr arasında dünya birinciliyi keçirilib. Yarışda iştirak edən Azərbaycan idmançıları çempionatın fərdi yarışlarında iki medal qazanıblar. Təmsilçilərimizdən Kamran Süleymanov (60 kq) gümüş, Vüqar Talıbov (73 kq) isə bürünc medala layiq görülüb. Yarışın sonuncu günündə cüdoçular komanda yarışlarında mübarizə aparıblar. Millimiz tarixdə ilk dəfə olaraq dünya birinciliyinin komanda yarışlarının gümüş medalını qazanıb.

* * *

Lüksemburqda cüdo üzrə Avropa açıq kuboku yarışı keçirilib. Yarışda iştirak edən cüdoçularımız Avropa açıq kubokunu 4 (1 qızıl, 3 bürünc) medalla başa vurublar. Turnirin ilk günündə Aleksandra-Larisa Florian (57 kq) və Rəşad Yelkiyev (60 kq) 3-cü yeri tutublar. Beynəlxalq turnirin son günündə kişilər arasında +100 kq çəki dərəcəsində mübarizə aparan İmran Yusifov bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülüb. Komandamızın digər üzvü Aslan Mirzəyev (100 kq) Avropa kubokunun bürünc medalına sahib olub.

## Güləş

Qazaxıstanın Nur-Sultan şəhərində güləş üzrə dünya çempionatı keçirilib. Azərbaycan pəhləvanları Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 6 medala sahib çıxıblar. Komandamızın üzvlərindən yalnız qadın güləşçimiz Mariya Stadnik (50 kq) qızıl medala sahib çıxıb. Sərbəst güləşçilərimiz Şərif Şərifov (97 kq), Cəbrayıl Həsənov (79 kq) və yunan-Roma güləşçimiz Rafiq Hüseynov (82 kq) gümüş medala layiq görülüblər. Komandamıza bürünc medalları isə yunan-Roma güləşçisi Eldəniz Əzizli (55 kq) və qadın güləşçisi Elis Monolova (65 kq) qazandırıb.

* * *

Rusiyanın Vladiqafqaz şəhərində 23 yaşadək güləşçilər arasında Yuri Qusovun xatirə turniri keçirilib. Yarışda ölkəmizi təmsil edən güləşçilərdən ikisi fəxri kürsüyə qalxıb. İslam Bazarqanov (57 kq) qızıl, Abubakr Abakarov (79 kq) isə gümüş medal qazanıblar.

## Boks

Dağıstanın Aquşa kəndində azərbaycanlı boksçu, üçqat dünya çempionu, London Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Məhəmmədrəsul Məcidovun şərəfinə turnir keçirilib. Yeniyetmə boksçular arasında təşkil edilən yarışda ölkəmizi məşqçi Tofiq Babayevin rəhbərliyi altında Baku Fayt Lab (BFL) klubunun yetirmələri təmsil ediblər.

Boksçularımız turnirdə uğurla çıxış edərək 11 medal qazanıblar.

## Velosiped

Velosipedçilər Tokio-2020 Yay Olimpiya Oyunlarına daha 20 lisenziya xalı qazanıblar. Təmsilçilərimiz lisenziya xallarını Türkiyənin Konya şəhərində keçirilən üç mərhələli “Tour of Mevlana” turnirində toplayıblar. Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı veloturunun ümumi təsnifatında Samir Cəbrayılov beşinci yeri tutaraq 15 lisenziya xalı əldə edib. Yeddinci pillədə qərarlaşan Elçin Əsədov isə ölkəmizin aktivinə 5 lisenziya xalı yazdırıb.

## Taekvondo

Yaponiyanın Çiba şəhərində taekvondo üzrə Qran-pri turniri keçirilib. G4 kateqoriyalı yarışda Azərbaycan idmançıları da mübarizə aparıblar. 80 kiloqram çəki dərəcəsində yarışan Olimpiya mükafatçımız Milad Beiqi Harçeqani bütün rəqiblərinə qalib gələrək qızıl medala shib çıxıb. Digər taekvondoçumuz Radik İsayev (+80 kq) isə yalnız yarımfinalda məğlub olaraq, bürünc medala layiq görülüb.

## Karate

İsveçrədə karate üzrə “Bazel Open” beynəlxalq turniri keçirilib. 28 ölkədən 788 idmançının mübarizə apardığı yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Millimizin üzvü Şahin Atamov “Masters” seriyalı ustaların yarışında çempion olub. Novruz Əliyev və İlahə Qasımova isə bürünc medal qazanıblar. Fərdi yarışlarda İ.Qasımova (55 kq) və Fəridə Əliyeva (68 kq-dan yuxarı) ikinci yeri, N.Əliyev (75 kq) üçüncü pilləni tutub.

* * *

Yaponiyanın paytaxtı Tokioda “Karate 1 Premyer Liqa” turniri keçirilib. Nippon Budokan idman zalında təşkil olunan yarışda 79 ölkədən 649 karateçi mübarizə aparıb.Yarışda iştirak edən Azərbaycan idmançıları 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar. Təmsilçilərimizdən İrina Zaretska (-68 kq) qızıl, Rafael Ağayev (-75 kq) gümüş,Ayxan Mamayev (-84 kq) isə bürünc medala sahib çıxıb.

* * *

Yeniyetmə və gənclərdən ibarət karate üzrə milli komandanın üzvləri Macarıstanda keçirilən XXII “Budapeşt Open” beynəlxalq turnirində mübarizə aparıblar. Təmsilçilərimiz yarışları 8 medalla başa vurublar. Komandamızın 16-17 yaşlı üzvlərindən Hüseyn Məmmədli (61 kq), Ayla Rzazadə (59 kq), həmçinin 21 yaşadək gənclərdən Murad Hacızadə (+84 kq) qızıl medal qazanıblar. Böyüklər arasında da gücünü sınayan M.Hacızadə (+84 kq) gümüş, 16-18 yaşlı gənclərdən Sultan Hüseynov (55 kq), Tale Yaqubov (68 kq), 21 yaşadək gənclərdən isə Hümmət Baxşəliyev (67 kq) və Fidan Teymurova (50 kq) bürünc medallara sahib olublar.

* * *

İranın Urmiya şəhərində ənənəvi beynəlxalq karate turniri keçirilib.

Yarışda iştirak edən Azərbaycan karateçiləri turnirdə 6 medal qazanıblar. Təmsilçilərimizdən Ramil Baxşəliyev (14-15 yaşlı yeniyetmələr, 52 kq) və Hüseyn Hüseynzadə (16-17 yaşlı gənclər, 76 kq) qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Digər karateçilərimizdən Azər Tapdıqlı (14-15 yaşlı yeniyetmələr, 63 kq) gümüş, Tural Balcanlı (kata), Ruslan Qafarlı (14-15 yaşlı yeniyetmələr, 57 kq) və Emin Namazov (14-15 yaşlı yeniyetmələr, kata) isə bürünc mükafat qazanıblar.

* * *

Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş karate üzrə ənənəvi “Olimpiya ümidləri” beynəlxalq turniri keçirilib. Turnirdə Azərbaycandan başqa, Özbəkistan, Türkmənistan və Ukraynadan 30 regionu təmsil edən 65 klubun tərkibində 734 aşağı yaşlı karateçi mübarizə aparıb.

Yarışda birinci yeri ən çox medal qazanan “Qara Qaplan” komandası tutub, “Zirvə” komandası ikinci pillədə qərarlaşıb. “Arpaçay” karate klubu isə yarışı üçüncü yerdə tamamlayıb.

## Basketbol

“Zirvə-Astara” komandası Beynəlxalq Basketbol Federasiyasının (FİBA) təşkilatçılığı ilə keçirilən 3x3 basketbolu üzrə 2019-cu il dünya turunda çıxış edib. Basketbolçularımız Xorvatiya, Polşa, Latviya, Belarus və İsveçrə mərhələlərində qüvvələrini sınayaraq, uğur qazanmağa çalışıblar. Komandamız sonuncu yarışda C qrupunda yer alıb. Basketbolçularımız turnirdə bürünc medala sahib çıxıblar.

## Arena Polo

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Bakıda 7-ci arena polo üzrə dünya kuboku keçirilib. Turnirin həlledici görüşündə Azərbaycanın “Elite Horse & Polo Club Baku” və Almaniyanın “Los Nocheros Polo Club Münster” komandaları qarşılaşıblar. Komandamız final görüşündən qalib ayrılıb - 15:4. Beləliklə, Azərbaycanın “Elite Horse & Polo Club Baku” komandası turnirin qalibi adını qazanıb.

## Qılıncoynatma

Bolqarıstanın Plovdiv şəhərində sablya üzrə “Satellite” turniri keçirilib. Qadın sablyaçıların şəxsi yarışında təmsilçimiz Anna Başta gümüş medal qazanıb. Bu yarışdan sonra Anna Başta Belçikanın Gent şəhərində keçirilən “Satellite”seriyalı “Flemish Open” turnirində gücünü sınayıb. İdmançımız turnirdə uğurla yarışaraq qadın sablyaçıların şəxsi yarışında turnirin qızıl medalını qazanıb.

## Atıcılıq

İtaliyanın Bolonya şəhərində güllə atıcılığı üzrə Avropa çempionatı keçirilib. Çempionatda 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışında ölkəmizi Ruslan Lunyov təmsil edib. Finalda təmsilçimiz Ukrayna idmançısı ilə eyni - 587 xal toplayıb. Lakin şəxsi göstəricilərə görə, rəqibi qabaqlayan R.Lunyov Avropa çempionatının qızıl medalını qazanıb. Təmsilçimiz bu nəticə ilə Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

## Sumo

Macarıstanın paytaxtı Budapeştdə sumo üzrə Avropa birinciliyi keçirilib. Komandamız yarışlarda Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında mübarizə aparıb. İdmançılarımız qitə birinciliyində 1 gümüş və 1 bürünc medal qazanıb. Təmsilçilərimizdən Məhərrəm Eyvazov(60 kq) yalnız finalda uduzaraq, gümüş medala sahib çıxıb. Bu çəki dərəcəsində mübarizə aparan Nahid Vəliyev isə bürünc medala layiq görülüb.

## Badminton

Ukraynanın Xarkov şəhərində badminton üzrə “RSL Kharkiv International 2019” turniri keçirilib. Yarışda Azərbaycan badmintonçusu Edi Reski Dviçayo da iştirak edib. Təmsilçimiz 68 badmintonçunun mübarizə apardığı “International Challenge” kateqoriyalı turnirdə kişilərin şəxsi yarışında ikinci yeri tutub. O, bu nəticə ilə aktivinə 3400 reytinq xalı yazdırıb.

## Şahmat

Azərbaycan şahmatçısı Abdulla Qədimbəyli Sankt-Peterburqda təşkil olunan beynəlxalq turnirdə uğurla çıxış edib. On turdan 5,5 xal toplayan A.Qədimbəyli turniri ikinci pillədə başa vurub. Digər şahmatçılarımız Əhməd Əhmədzadə 5 xalla dördüncü, Azər Mirzəyev isə 4,5 xalla altıncı olub.

* * *

Ölkəmizdə şahmat üzrə “Baku Open” beynəlxalq turniri keçirilib. Yarışda ölkəmizi təmsil edən Qədir Hüseynov beynəlxalq turnirin qalibi olub. Millimizin üzvləri Murad İbrahimli yarışı ikinci, Vüqar Əsədli isə üçüncü pillədə başa vurublar.

## Ciu-citsu

Moskvada Braziliya ciu-citsusu üzrə dünya kuboku turniri keçirilib.

Yarışda Azərbaycan idmançıları da iştirak ediblər. Təmsilçilərimiz Ayaz Süleymanov, Mehman Fətəliyev, Vüsal Eynullayev, Zaur Aşumov, Müşfiq Əlili və Zaman Qəhrəmanov ciu-citsunun bütün versiyaları üzrə ümumilikdə 5 qızıl, 1 gümüş və 6 bürünc medal qazanıblar.



# Əməkdaşlıq memorandumu imzalanacaq

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutu ilə Azərbaycan Milli Paralimpiya Komitəsi (AMPK) arasında əməkdaşlıq memorandumu imzalanacaq. Bu, İnstitutun direktoru, Milli Məclisin deputatı Aytən Mustafazadə ilə Komitənin prezidenti İlqar Rəhimovun görüşündə müzakirə edilib. Görüşdə fiziki imkanları məhdud insanların hüquqlarının təmin olunması ilə bağlı fikir mübadiləsi aparılıb. A.Mustafazadə qeyd edib ki, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu əlilliyi olan şəxslərin hüquqlarının tam şəkildə təmin olunması istiqamətində komitə ilə əməkdaşlıqda maraqlıdır. Bu əməkdaşlıq əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası, məşğulluq və müyəssərliyin təmin edilməsi istiqamətində ola bilər. Bu gün Bakıda və ölkəmizin digər regionlarında əlilliyi olan şəxslərin qarşılaşdığı başlıca problemlər müyəssərliklə bağlıdır. Fiziki məhdudiyyəti olan insanların şəhərdə və müxtəlif obyektlərdə rahat hərəkət edə bilmələri üçün müyəssərliyin təmin edilməsi vacibdir.

Qeyd olunub ki, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu bu sahədə təbliğat istiqamətində bir sıra işlər görüb. Lakin AMPK ilə əməkdaşlıq görülən işlərin daha səmərəli olması üçün faydalıdır.

Rəhbərlik etdiyi qurum barədə məlumat verən İ.Rəhimov qeyd edib ki, AMPK idman təşkilatı olsa da, ölkədə əlil şəxslərlə bağlı fəaliyyət göstərən ən böyük qurumdur. Əsas hədəfimiz əlilliyi olan şəxslərin idman vasitəsilə cəmiyyətə inteqrasiya olunmasıdır. Biz əlilliyi olan şəxslərin digər problemləri ilə də məşğul oluruq. Küçələrdə, universitetlərdə, məktəblərdə və yarışların keçirildiyi idman arenalarında müyəssərliyin olmaması, əlil idmançıların fəaliyyətinə maneələr yaradır. Həmin problemlərin həlli istiqamətində də işlər görməli oluruq.

İ.Rəhimov ölkəmizdə infrastruktur obyektlərinin əlillər üçün müyəssər olması üçün iş aparıldığını vurğulayıb. Bildirib ki, bu sahədə ekspertlərin hazırlanması üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq davam edir.

Görüşdə AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu ilə AMPK arasında əməkdaşlıq memorandumunun imzalanması barədə razılıq əldə olunub.

# Yeni mövsümün təqvimi təsdiqləndi

Kölndə FİA prezidenti Jan Todtun sədrliyi ilə Dünya Avtomobil İdmanı Şurasının iclası keçirilib.




İclasda 2020-ci il çempionatının təqvimi təsdiq edilib.

Çempionatda mərhələlərin sayına görə rekord müəyyən olunacağı gözlənilir. Belə ki, martın ortalarından noyabrın sonunadək 22 Qran-Pri keçiriləcək: Hanoy (Vyetnam) və Zandvoort (Hollandiya) mərhələləri. Yeri gəlmişkən, Niderland Qran-Prisini yalnız şərti olaraq yeni saymaq olar: bu yürüş 35 illik fasilədən sonra qayıdır. Lakin Almaniya Qran-Prisi gələn ildən keçirilməyəcək.

FİA-nın rəsmi saytında dərc olunmuş təqvimdə Vyetnam və Hollandiya mərhələləri ulduzla işarələnib. Bu, o deməkdir ki, traslar hələlik federasiyanın təkmilləşdirmə testindən keçməyib.

Mövsüm ərzində 14 yürüş həftəlik fasilələrə ayrılıb. Bunlar Avstraliya və Bəhreyn, Hollandiya və İspaniya, Azərbaycan və Kanada, Fransa və Avstriya, Belçika və İtaliya, Sinqapur, habelə ABŞ və Rusiya yürüşləridir. Lakin çempionata avqust ayında verilən dörd həftəlik ənənəvi fasilə saxlanılıb.

Mövsümün ilkin gündəliyi avqustun sonunda təqdim edilib və burada göstərilən yürüşlərin tarixləri rəsmən təsdiq edilmiş versiyada dəyişdirilməyib.

Dünya Avtomobil İdmanı Şurası növbəti dəfə dekabrın 4-də Parisdə toplanacaq. Burada FİA-nın Baş Assambleyası və federasiyanın himayəsi ilə təşkil olunan çempionatların mükafatçılarının və qaliblərinin mükafatlandırılması mərasimi keçiriləcək.

— Yubiley —

# "Elə yaşamalıyıq ki, geriyə baxanda peşman olmayaq"

***Şahmat insan zəkasının köməyi ilə bəşəriyyətə verilən ən böyük töhfədir. Ruhun sağlamlığı üçün açar olan zəka oyunu sağlam bədən amilindən də yan keçmir. İnsan beyninin məhsulu olan şahmat uşaq və gənclərdə intellekt və dünya görüşünü paralel inkişaf etdirir. Əsrlərin yaddaşından süzülüb gələn, milyonların marağına səbəb olan şahmata ölkəmizdə böyük diqqət göstərilir. Bu gün paytaxtla yanaşı, bölgələrimizdə də bu zəka oyununun sehrinə düşən kifayət qədər yeniyetmə və gənclərimiz var. Onların bu sahədə uğur qazanmasında isə bilavasitə müəllimlərin və peşəkar mütəxəssislərin rolu əvəzsizdir.***



Bu gün haqqında danışacağımız mütəxəssilərdən biri də təcrübəli şahmat mütəxəssisi Ağalar Cavadovdur. İmişli Uşaq Gənclər Şahmat İdman Məktəbində müəllim, daha sonra isə direktor vəzifəsində çalışan Ağalar müəllimin bu yaxınlarda 60 yaşı tamam olub. Redaksiyamızın qonağı olan yubilyarla söhbət zamanı İmişli rayonunda şahmatın inkişafı, bu növə olan maraq və digər məsələlərə də toxunduq. Müəllim və direktor vəzifəsində çalışdığı illərdə işini şərəflə yerinə yetirən Ağalar Cavadov bir sıra yeniyetmə və gənclərə bu idman növünün sirlərini öyrədib. Müsahibimiz şahmata gəlişini və bu sahədə yaşadığı rayonda gördüyü işləri belə xatırlayır: "Şahmata gəlişim 6 yaşıma təsadüf edib. 3-4-cü sinifdə oxuyanda isə artıq bu idman növü ilə daimi məşğul olmağa başladım. Yadıma gəlir ki, hər gün saatlarla qonşumuzun uşaqları ilə şahmat oynayardıq. Orta məktəbdə oxuyanda həm şahmatla məşğul olur, həm də başqa sahələrdə aktiv iştirak edirdim. Möhübbət Paşayev və Saleh İmanov kimi müəllimlərimiz bizdə idmana böyük maraq yaratmışdı. Hərbi xidmətdə olduğum illərdə bu maraq daha da artdı. Hərbi xidmətimi başa vurduqdan sonra müxtəlif vəzifələrdə çalışmışam. Bu müddətdə əsasən, gənclərlə işləyirdim. Həmişə çalışmışam ki, gənc nəslə idmanı aşılayaraq, bacardığım qədər bu sahənin inkişafına öz töhfəmi verim.

2015-ci ilin aprel ayından, 2017-ci ilin sentyabr ayına kimi İmişli Uşaq Gənclər Şahmat İdman Məktəbində direktor vəzifəsində çalışmışam. Bundan əvvəl isə həmin məktəbdə bir müddət şahmat müəllimi kimi fəaliyyət göstərmişəm. Qısa müddət ərzində İmişli Uşaq Gənclər Şahmat İdman Məktəbindən 3 şahmatçının adı FİDE-nin reytinq cədvəlində yer aldı. Bir məsələni qeyd edim ki, mən hər zaman çalışdığım illərdə kəmiyyətin deyil, kefiyyətin dalınca qaçmaq prinsipi ilə işləmişəm. İstəyirdim ki, hər zaman həqiqi nəticələr olsun. Bizim məktəbin əvvəlki məzunları arasında Kənan Vəlixanov şahmat bəstəçiliyi üzrə Olimpiya çempionu olub. O, bir neçə dəfə məktəbimizdə uşaqlara seans keçib. Məktəbin məzunları arasında Elnur Mehdiyevin də adını qeyd etmək olar. İstedadlı şahmatçı ölkədaxili yarışlarla yanaşı, beynəlxalq turnirlərdə də fəxri kürsüdə yer alıb. Bundan başqa məktəbin uşaqlarını bölgələrdə və paytaxtda keçirilən şahmat yarışlarına aparırdım. Uşaqlarda şahmata qarşı o qədər böyük maraq yaranmışdı ki, hətta istirahət günlərində belə, məktəbə gələrək şahmatla məşğul olmağa çalışırdılar. Şahmat sanki onların canına hopmuşdu. Təbii ki, yeniyetmə və gənclərin zərərli vərdişlərə deyil, idmana meyl etməsi mənim üçün böyük uğur idi. Uşaqlarda maraq oyatmaq üçün mütəmadi olaraq yarışlar təşkil edir, iştirakçılara mükafatlar təsis edirdim. Həmin yarışlarda diplom, medal və suvenirlərlə təltif olunan şahmatçılarda böyük maraq yaranırdı. Bir sözlə, qısa vaxt ərzində İmişlidə şahmat idman növü ilə məşğul olanların sayı da artdı. Məktəbə gündəlik olaraq 72 nəfər uşaq gəlirdi. Bu həmin vaxt üçün böyük rəqəm idi".

## "Şahmat yeniyetmə və gənclərin həyatında böyük rol oynayır"

Ölkəmizdə idmana da böyük diqqət və qayğı göstərildiyini qeyd edən müsahibimiz paytaxtla yanaşı, bölgələrdə yerləşən bir sıra məktəblərdə şahmatın inkişafı üçün pilot proqramlar tətbiq edildiyini bildirdi. "Bu gün Azərbaycanda orta məktəblərin əksəriyyətində şahmat dərnəkləri təşkil olunur. İmişlidə də bir sıra məktəblərdə şahmatın inkişafı üçün pilot layihə həyata keçirilir. Əgər orta məktəblərdə şahmatı dərindən bilən şagirdlər yetişdirilərsə, ixtisaslaşdırılmış şahmat məktəblərinin də seçimi asan olacaq. İnanıram ki, gələcəkdə hər bir insan şahmatın təhsilin səviyyəsinə necə təsir göstərdiyini başa düşəcək. O məktəblərdə ki, şahmatla məşğul olurlar, nəticələr digər məktəblərə nisbətən yüksək olur. Bu nəticələr yalnız riyaziyyatda yox, digər fənlərdə də özünü göstərir. Şahmat uşaqları düşünməyə sövq edir. Zəka oyunu ilə məşğul olan məktəbli müəyyən məsələlərə öz fikrini düşünərək bildirir. Bir sözlə, şahmat yeniyetmə və gənclərin həyatında böyük rol oynayır. Yəni insan böyüdükcə şahmat onun şəxsi keyfiyyətlərinə müsbət təsir göstərir. Bu gün zəka sahiblərimiz ölkəmizi beynəlxalq arenalarda uğurla təmsil edirlər", - deyə Ağalar Cavadov qeyd etdi.

## "Azərbaycanda idmana marağı olan istedadlı gənclər kifayət qədərdir"

İstənilən idman növünün inkişafı üçün güclü təbliğat və düzgün seçimin vacibliyini qeyd edən Ağalar müəllim çalışdığı müddətdə bu məsələlərə ciddi yanaşdığını dedi. Təcrübəli mütəxəssis peşəkar idmanın məhəllələrdən başladığını qeyd edərək uşaq idmanının inkişafına diqqət göstərilməsinin vacibliyini diqqətə çatdırdı. "Braziliya futbolunun kütləvi hal alması və inkişafı məhz küçə futbolunun və uşaq idmanının inkişafına söykənir. Azərbaycanda da bu, belə olmalıdır. İstənilən nəticəni əldə etmək üçün uşaq idmanını inkişaf etdirmək lazımdır. Şahmatda isə bu, ailədən başlamalıdır. Əgər ailədə valideynlər şahmat oynamağı bacarırsa onların övladları da bu idman növü ilə məşğul olacaqlar. Təbii ki, bunun üçün valideyn öz övladı ilə müntəzəm olaraq şahmatla məşğul olmalıdır. Bu gün valideynlər uşaqlarını şahmata və digər idman bölmələrinə yazdırmağa daha çox meyllidirlər. Bu sevindirici haldır. Azərbaycanda idmana marağı olan istedadlı gənclər kifayət qədərdir. Sadəcə olaraq, həmin gəncləri aşkara çıxarmaq lazımdır", - deyə Ağalar müəllim bildirdi.

Bu yaxınlarda 60 illik yubileyni qeyd edən təcrübəli mütəxəssis söhbət zamanı qeyd etdi ki, insanın həyatda qazandığı ən böyük uğur ona bəxş olunan ömür payını şərəfli və alnıaçıq şəkildə yaşamasıdır. "Çalışıb elə yaşamalıyıq ki, geriyə baxanda peşman olmayaq. Əgər övlad atasının adı çəkiləndə, ata da övladın adını eşidəndə fəxr edirsə, bu böyük uğurdur. Elə yaşamalısan ki, gördüyün işlərə görə utanmayasan. Hər iki nüansa görə özümü çox xoşbəxt hiss edirəm. Mənim üçün bundan böyük uğur ola bilməz. Həmişə çalışmışam ki, işlədiyim yerlərdə intizamlı olum", - deyə Ağalar Cavadov bildirdi.

*Anar Əhmədov,*
*Azər Əlizadə*

# VII açıq respublika turnirinə yekun vurulub

***Oktyabrın 6-da Şamaxıda Əməkdar bədən tərbiyəsi və idman xadimi Oleq Krapivinin şərəfinə keçirilən sərbəst güləş üzrə VII açıq respublika turnirinə yekun vurulub. Şamaxı Olimpiya İdman Kompleksində təşkil olunan ənənəvi yarışda 2003-2004-cü illər təvəllüdlü yeniyetmə pəhləvanlar 10 çəki dərəsində mübarizə aparıblar.***



Turnirdə Azərbaycan, Rusiya, İran, Ukrayna, Gürcüstan, Qazaxıstan və Qırğızıstandan ümumilikdə 350-dən çox güləşçi qüvvəsini sınayıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Şərif Ulu Bilal (45 kq, Qırğızıstan), Elşən Babayev (48 kq, Azərbaycan), Əbdülrəhman İbrahimov (51 kq, Azərbaycan), Əli Qolizadeqav (55 kq, İran), Məmməd Əhmədov (60 kq, Azərbaycan), Əhməd Zaburbekov (65 kq, Rusiya), Osman Mintulayev (71 kq, Rusiya), Əmirəli Sabuteh (80 kq, İran), Xəlil Allahverdiyev (92 kq, Azərbaycan) və Səid-Hüseyn Əhmədov (110 kq, Rusiya) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qeyd edək ki, komanda hesabında Azərbaycan birinci, İran ikinci, Rusiya isə üçüncü yeri tutublar.

Futbol

# Səs-sorağımız azarkeşlərlə dolu stadionlardan gəlsin!



*Mobil İSMAYILOV*

***... İki-üç ilin söhbətidir. Türkiyədən maraqlı bir xəbəri izlədim. Xəbərdə deyilirdi ki, dünyanın ən hündür adamı sayılan türk Sultan Köşen (boyu 2 metr, 51 sm) suriyalı Merve Dibo ilə ailə həyatı qurub. Ginnesin rekordlar kitabına düşən Köşen Maronu vilayətində təntənəli toy mərasimi keçirib. Dərhal fikirləşdim ki, deyəsən futbolumuzdakı problemlərin "açarını" nəhayət, tapa bilərik (!) Nə yaxşı olardı bu şəxsi gətirək, bizim futbolu "xilas" etsin (!). Hələlik klubların birində oynayar, sonra da millиləşdirib, yığmanın tərkibinə daxil edərik. Elə dayansın qapının yanında, top gəldikcə, başı ilə qollar vursun. Onsuz da heç kim ona mane ola bilməyəcək. Ən başlıcası isə dünyanın ən hündür futbolçusuna görə tamaşaçılar, azarkeşlər nəhayət, boş qalmış stadionlara axışar...***

## "Azarkeşlərlə dolu stadionlarda qələbənin ləzzəti başqadır"

Mən tez-tez tamaşaçılarla, azarkeşlərlə dolu olan stadionları, az qala, nağıla çevrilən futbol şəhərlərini xəyalən dolaşıram. Daha çox "böyük beşlik" ölkələrinin stadionlarında azarkeşlər əsrarəngiz gözəlliklər çələnginə bürünürlər. Gəlin, bir anlığa gözlərimizin önündə tribunaları tamaşaçılarla dolu olan stadionları canlandıraq. Hamı qışqırır, oxuyur, bayraqları dalğalandırır. Yaşlılar, gənclər, qadınlar, uşaqlar bir-birinə qaynayıb qarışır. Millətindən, irqindən, cinsindən, yaşından asılı olmayaraq hamı coşub-çağlayır. Təbii ki, belə stadionlarda futbolçuların məsuliyyət hissi də pik həddə çatır. Onlar tamaşaçıların gözləri qarşısında yalnız yaxşı oynamağa borcludurlar və ... məcburdurlar. Eyni zamanda qazandıqları qələbənin də nə qədər böyük, əhəmiyyətli olduğunu dərk edirlər. Azarkeşlərlə dolu stadionlarda qələbənin ləzzəti başqadır. Ayaqları sanki yerə dəyməyən futbol ulduzları bilirlər ki, azarkeşlər özlərini buludlardan da ucalıqda hiss edirlər. Onlar yorulsalar da, bunu büruzə vermirlər və verə bilməzlər də. Çünki haqları yoxdur. Tamaşaçı futbolçunun yorulmasını hiss etməməlidir. Bütün bu hisslər əslində çox şirin və qeyri-adidir. Budur, futbolçular meydanı tərk edirlər, özü də yalnız qaliblərə məxsus bir yerişlə ...

## "Boş stadionlar sanki yorğun və kədərli görünür"

Mən bəzi Avropa ölkələrindəki stadionlarda olmuşam. Tribunaya ayaq basan kimi gözümə dəyən gözəl mənzərədən sonra aşıqlar demişkən, "ürəyim döyünüb, könlüm atlanıb". Bir dəfə İstanbulda bir türk azarkeşi mənə dedi ki, stadionda xoşbəxt anlar yaşayıram. Hər şeyi unudaraq gözlərimi meydana zilləyirəm. Oyun ərzində həyatın qəmkədərini də, kəm-kəsirini də yaddan çıxarıb özümü ovuduram. Belə xoşbəxt anlarda hər şeylə bağlı üzüm gülür, gözlərimdə ümid işığı doğur. Bəli, həqiqətən, futbola stadiondan baxmağın ayrı ləzzəti var. Müasir futbolda fiziki güc, ruh yüksəkliyi, istəkli olmaq çox vacibdir. Futbolçularda bu keyfiyyətləri isə yalnız tamaşaçılarla dolan stadionlarda müşahidə etmək mümkündür. Bəs bizim stadionlar? Təəssüf ki, bizim gözəl tikilmiş stadionlarımız "suyu sovrulmuş dəyirmanları" xatırladır. Boş tribunalar bir məkan kimi quru, cansıxıcı, hətta sanki kədərli və yorğun görünür. Nə olsun ki, daşdır, taxtadır, plastik materiallardır. Fərqi yoxdur. İstənilən tikinti materiallarından qurulmuş tribunaların da darıxmaq, kədərlənmək, köhnəlmək, hətta vaxtından əvvəl qocalmaq haqqı var... Elə bəzi insanlar kimi... Bizim boş stadionlar sanki yorğun və kədərli görünür. Arenalar boş olanda, sərin, soyuq havalarda elə bil soyuqdan üşüyür. Qarlı-şaxtalı qış günlərində isə sanki donurlar. Elə yalqız, unudulmuş insanlar kimi... Stadionlarımızın boş olmasından həmişə təəssüflənmişik, acınacaqlı məğlubiyyətlərdən yanıb-yaxılmışıq. Hətta belə hallarda şərhçilərin, aparıcıların sözlərinin, müsahibələr zamanı suallarının emosiyası, sanki gözlərinin işığı da olmur... İllər bir-birini əvəz edir. Biz isə futbolumuzun inkişafına olan ümidlərlə özümüz özümüzü aldadırıq. Stadionlar dolmasa, şirnikləndirici vədlərdən başqa ortada heç nə olmayacaq.





## "Əsil azarkeşlər üçün futbol bir daxili dünya məsələsidir"

Əziz azarkeş dostum! Stadionlar dolmasa, hətta "bərk gedən" məşqçinin dəvət olunması, ən yaxşı oyunçuların gətirilməsi də heç bir fayda verməyəcək. Axı, boş tribunalarda futbolçular kimlərə məmnunluq bəxş etsinlər? Axı, onlar azarkeşlərə gözəl dəqiqələr, yaddaqalan epizodlar, maraqlı görüntülər, bədii, estetik zövq, həzz bəxş etmək üçün meydana çıxırlar. Axı, azarkeşsiz, tamaşaçısız boş tribunalarda futbolun nə ləzzəti?! Son vaxtların iki epizodunu yada salmaq istərdim. Avropa çempionatının ilkin seçmə qrup mərhələsində Türkiyə Moldovanı qəbul edirdi. Təbii ki, Moldovanın güclü olmadığı və Türkiyənin çətinlik çəkmədən qələbə qazanacağı futbol həvəskarlarına əvvəlcədən bəlli idi. Həmin komanda ilə oyunda tamaşaçıların da elə də canfəşanlıq etməyəcəyi ehtimal olunurdu. Amma biz tam dolmuş stadionda möhtəşəm bir mənzərə gördük. Qulaqbatırıcı səs-küy ətrafı bürümüşdü. Hər bir tamaşaçının əlində türk bayrağı dalğalanırdı. Sanki türklər Braziliya yığması ilə qarşılaşırdı. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da oyunu izləyənlər arasında idi. Bu günlərdə Rumıniya millisi ev oyununda İspaniya yığmasını qəbul edirdi. Son dövrlərdə Rumıniya komandası əvvəlki yaxşı illərini yaşamasa da, imkanlar təxminən bərabər dəyərləndirilirdi. Tam dolmuş stadion başdan-başa sarı rəngə boyanmışdı. Mənzərə çox gözəl idi. Tribunalarda hər yaşda olan tamaşaçıya rast gəlinirdi. Qışqırtılar, şüarlar ara vermirdi. Xüsusən, uşaqların həyəcanı, kədəri o qədər təbii və maraqlı bir tərzdə sezilirdi ki, sanki bizlər də bir anlığa oyunu efirdən izləməyi unudurduq. Bax, budur, dolu tribunaların möhtəşəmliyi, gözəlliyi! Axı, əsil azarkeşlər üçün futbol bir daxili dünya məsələsidir. Hər iki oyunda azarkeş dəstəyi heyranedici idi...




## "Uğur qazanmaq üçün ilk növbədə stadionlar dolu olmalıdır"

Deməli, boş stadionlar istər-istəməz futbolçuların oyun həvəsinə, istəyinə təsir edir. Əslində boş stadionlarda oyunçuların psixoloji vəziyyəti də qaydasında ola bilməz. Futbolçu sağa-sola boylanır və boş tribunalar görür. Belə olan halda hansı əhval-ruhiyyədən söhbət gedə bilər? Azarkeşi olmayan meydanda rəqiblə necə mübarizə aparmaq olar? Necə döyüşmək olar? Komandanın şərəfini necə qorumaq, klubun nüfuzunu necə qaldırmaq olar? Xallar qazanmaq, uğur zolağına düşmək üçün ilk növbədə stadionlar dolu olmalıdır. Deməli, hər şey stadionlardan, azarkeşlərdən başlanır. Tribunalar dolanda, azarkeşlər fəal olanda rəqib komandanın oyunçularında çaşqınlıq yaranmağa başlayır, nəticədə də səhvlər daha çox özünü göstərir. Boş stadionlar məşqçiyə də təsir edir və o, sanki aciz duruma düşür. Burada artıq məşqçinin qabiliyyəti, səriştəsi köməyə gəlmir.

## "Keçmiş olsun deyək, boş stadionlara!!!"

Tofiq Bəhramov adına Respublika Stadionu şəhərin mərkəzində yerləşdiyindən yaxın ətrafdan çox yaxşı görünür. Hər birimizin də yolu bu tarixi futbol məbədinin yaxınlığına düşür. Yəni, ən azından tez-tez buradan keçməli oluruq. Hər dəfə bu əzəmətli stadionun yanından keçərkən ayaq saxlayıb düşünürəm ki, SSRİ dövründə buranın tam dolmayan günləri nadir hallarda olurdu. Gör, bu stadionda kimlər meydana çıxıblar. Şöhrəti dillər əzbəri olan futbolçular oynayıblar burada. Yeri gələndə çarpışıblar, döyüşüblər, sadəcə mübarizə aparmayıblar. İstedadları, peşəkarlıqları məhz qədim tarixi ənənələrə malik bu stadionda almaz kimi yonulub, cilalanıb. Ümumiyyətlə, idman arenaları xalqın mədəniyyətinin, zövqünün formalaşmasında böyük rol oynayır. Burada söhbət təkcə futboldan getmir, idmanın digər növləri də nəzərdə tutulur. Yaşlı nəslin nostalji hisslərinə səbəb olan bu stadionu ona görə yada saldım ki, bizim parlaq, unudulmaz futbol keçmişimiz, özümüzəməxsus çılğın, bənzərsiz azarkeş ənənələrimiz olub. Ona görə də üzümü azarkeşlərə tutub deyirəm: "Daha bəsdir, vaxtdır! Neçə illərdir ki, mürgüləyən hiss və duyğularımızı hərəkətə gətirək! Laqeydliyi kənara qoyub, ətalətdən əl çəkmək lazımdır. Gəlin, stadionlara üz tutaq. Qoy, səs-sorağımız stadionlardan gəlsin! Tribunalarda gözəllik yaradaq. Axı necə olur ki, xarici ölkələrdə bu, asanlıqla baş verir. Biz də bunları edə bilərik. Azarkeşlər həm də stadionlarda futbolun sirli dünyasından agah olurlar. Gərək stadionlara gedək ki, futbolumuz da başımızı uca etsin. Futbolçularımız da fərəhlənsin. Axı, futbolçular tamaşaçıların gözləri qarşısında formalaşıb peşəkar olurlar. Stadionların qapılarından azarkeşlər, tamaşaçılar girib-çıxmalıdırlar. Onlar hər dəfə də düşünməlidirlər ki, hələ bu tribunalar neçə-neçə futbolçuları yola salacaq. Stadionların dolması isə futbolumuza, ölkəmizə yeni bir azarkeş ab-havası verəcək. Soyuq, sazaqlı qış günlərində də məhz tamaşaçılar stadionları "qızdırmalıdır". Axı, xarici ölkələrdə bütün bunları çox yaxşı bacarırlar. İnanıram ki, həmin stadionlardakı gözəl mənzərələr nə vaxtsa bizə də qismət olacaq. Azarkeşlər tribunalarda coşub-çağlayacaqlar. Gəlin, yüksək səviyyəli futbol nümunələrinə stadionlarda baxaq. Biz də azarkeş ovqatını, azarkeş hisslərini nəhayət, stadionlarda yaşayaq. Stadionlar, dolsun, biz də qürurlanaq. Keçmiş olsun deyək, boş stadionlara!!!

# FUTBOL

## Transfer pəncərəsinin yeni sakinləri

*(əvvəli ötən sayımızda)*

Qəzetimizin budəfəki sayında Fransa Liqa 1-də çıxış edən klubların yay transfer pəncərəsində həyata keçirdiyi transferlər barədə məlumat verəcəyik. Fransa klubları bu ilki fasilədə digər ölkələrin komandalarından transfer siyasəti baxımından geri qaldılar. Ölkə kubokuna heç bir iddiası qalmayan Liqa 1 təmsilçiləri, hətta Liqa1-in son illərki qalibi PSJ belə bu il transfer pəncərəsində passivlik nümayiş etdirdi. Təsadüfi deyil ki, Fransa təmsilçiləri, "böyük beşlik" ölkələrinin klubları ilə müqayisədə transferlərə az pul xərclədiyiblər. Son illərdə ölkə çempionatını şəxsi turnirinə çevirən və heç bir klubun çempion olmasına fürsət verməyən PSJ belə bu il heyətinə bahalı futbolçu cəlb etməyi ehtiyac duymayıb. Görünür, artıq ərəb şeyxləri də kluba bahalı ulduz futbolçu cəlb etməyi lazım bilmirlər. Hər halda həyata keçirilən transferlər bunu deməyə əsas verir. Parislilər bu il Sarabiya, Quye, Diallo, Errera, Bekker kimi futbolçularla heyətini bir qədər də gücləndirib. Fransa nəhəngi transfer pəncərəsinin son günündə İtaliyanın "İnter" klubunun hücumçusu Mario İkardini isə icarə əsasında heyətinə cəlb etdi. Ümumilikdə götürsək, builki transfer pəncərəsində PSJ-nin ən böyük uğuru idman direktoru Leonardo Arauxonun gəlişindən sonra fransalı gənc ulduz Mbappe və braziliyalı hücumçu Neymarın klubda saxlanılması oldu. Bundan başqa parislilər təcrübəli mütəxəssisin sayəsində Madrid "Real"ının qapıçısı Keylor Navası da transfer pəncərəsinin son günündə heyətinə cəlb edib. Hər halda PSJ klubu bu il də Liqa 1-də çempionluğa əsas namizədlərdən biri sayılır. Klub hazırki heyətinə arxalanaraq, Avropanın 1 nömrəli klub turniri olan Çempionlar Liqasını da qazanmağı hədəfləyir.



Frasanın digər köklü klublarından olan "Lion" PSJ ilə raqabət aparmaq və Çempionlar Liqasında mümkün qədər çox irəliləmək üçün heyətinə bir sıra futbolçular cəlb edib - Ren-Adelaid, Andersen, Mendes, Kone və Lukas kimi futbolçularla heyətini gücləndirməyə çalışıb. Klub bununla yanaşı, Ndombele, Mendi, Fekir, Martins Perreyranı komandadan göndərib. Klubdan göndərilən futbolçulardan sonra yeni transferlərlə "Lion"un həm Çempionlar Liqası, həm də Fransa Liqa 1-də necə mübarizə aparması sual altındadır. Fransa çempionatındakı nəticələrə baxsaq görərik ki, "zümrüdlər"in işi heç də yaxşı getmir. Klub 8 turdan sonra 9 xalla turnir cədvəlinin 11-ci pilləsində qərarlaşıb.

Fransa Liqa 1-in digər təmsilçisi "Lil" klubu da bu ölkə çempionatında yüksək yerlər uğrunda mübarizə aparmaq üçün bir sıra transferlərə həyata keçirib. Klub bu il Sanşeş, Yazidji, Osimen, Bradariç və digər futbolçularla heyətini gücləndirib.



## Fransa Liqa 1 2019-2020

| Komanda | Gələnlər | Qiymәti (avro) | Gedənlər | Qiymәti (avro) |
|---|---|---|---|---|
| **PSJ** | | | | |
| | Diallo (Borussiya D.) | 31 mln | Lo Çelso (Betis) | 22 mln |
| | Quye (Everton) | 32 mln | Krikovyak (Lokomotiv) | 12 mln |
| | Sarabiya (Sevilya) | 18 mln | Vea (Lill) | 10 mln |
| | Errera (M.Yunayted) | azad agent | Rabio (Yuventus) | azad agent |
| | Bekker (Ayaks) | azad agent | Buffon(Yuventus) | 1 mln |
| | Bulka (Çelsi) | azad agent | Nkunku (Leyptsiq) | 13 mln |
| | Navas (Real) | 10 mln | Alves (San-Paulo) | 2,5 mln |
| | | | Trapp (Ayntraxt) | 7 mln |
| | | | Diabi (Bayer) | 15 mln |
| | | | Areola (Real) | 17,5 mln |
| | | | Xese (Sportinq) | icarə |
| | | | Remy ( Şarlerua) | 400 min |
| **Lil** | | | | |
| | Sanşeş (Bavariya) | 20 mln | Pepe (Arsenal) | 80 mln. |
| | Yazıçı (Trabzonspor) | 16,5 mln | Lean (Milan) | 25 mln. |
| | Osimen (Şarlerua) | 12 mln | Mendes (Lion) | 22 mln |
| | Vea (PSJ) | 10 mln | Kone (Lion) | 9 mln |
| | Andre (Renn) | 7 mln | El Qazi (Aston Villa) | 9 mln. |
| | Bradariç (Hayduk) | 6,5 mln | Kuame (Serkl Brügge) | icarə |
| | Jardim (Riu Ave) | 6 mln | Koffi (Belenenseş) | icarə |
| | Mandava (Belenenseş) | 3 mln | Dabila (Serkl Brügge) | icarə |
| | Leo (Riu Ave) | 6 mln | | |
| | Şou (Anqola) | 2 mln | | |
| **Lion** | | | | |
| | Ren-Adelad (Anje) | 25 mln | Ndombele (Tottenhem) | 60 mln. |
| | Andersen (Sampdoriya) | 24 mln | Mendi (Real) | 48 mln. |
| | Mendes (Lill) | 22 mln | Fekir (Betis) | 19,7 mln |
| | Kone (Lill) | 9 mln | Perreyra (Yanq Boyz) | 2 mln |
| | Lukas (Flamenqo) | 8 mln | Ovusu (Gent) | 1 mln |
| | Fofana (Ayaçço) | azad agent | Ferri (Monpelye) | 2 mln |
| | Tataruşanu (Nant) | azad agent | | |

## "Qarabağ" liderliyini möhkəmləndirib

Futbol üzrə Azərbaycan Premyer Liqasında yeddinci turun oyunları keçirilib. Turun açılış görüşündə "Sumqayıt" öz meydanında "Keşlə"ni qəbul edib. "Kapital Bank Arena"da keçirilən qarşılaşma heç-heçə yekunlaşıb - 0:0.

Turun ikinci matçında "Neftçi" komandası "Səbail"i qəbul edib. "Bakcell Arena"da keçirilən görüşdə hesabı meydan sahibləri açıb. Qarşılaşmanın 41-ci dəqiqəsində Stiven Monroz künc zərbəsindən sonra başla fərqlənib. Bundan 3 dəqiqə sonra isə Anton Krivotsyuk eyni ssenari ilə topu qapıdan keçirib. Oyunda son nöqtəni isə 81-ci dəqiqədə Ağabala Ramazanov qoyub - 2:1.

Turun ikinci oyun günündə "Zirə" komandası eyniadlı stadionda "Qəbələ"ni qəbul edib. Görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. Hər iki qol ikinci hissədə vurulub. Qarşılaşmanın 64-cü dəqiqəsində Ülvi İsgəndərov "Qəbələ"ni hesabda irəli çıxarıb. Bundan cəmi üç dəqiqə sonra İlkin Muradov tarazlığı təmin edib.

Turun sonuncu oyununda "Qarabağ" "Sabah"ı qəbul edib. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən qarşılaşma Ağdam təmsilçisinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Meydan sahiblərinin heyətində ilk qolu Maqaye Qeye 17-ci dəqiqədə vurub. Matçın



51-ci dəqiqəsində isə Abbas Hüseynov topu rəqib qapısından keçirib. Qarşılaşmanın 79-cu dəqiqəsində "Sabah"ın heyətində Bəhlul Mustafazadə qırmızı vərəqə alıb.

Ardıcıl 7-ci qələbəsini qazanan "Qarabağ" 21 xalla liderliyini daha da möhkəmləndirib. Aktivində 11 xal olan "Keşlə" və "Neftçi" komandaları isə müvafiq olaraq, ikinci, üçüncü yerləri bölüşürlər.

## Avro-2020: simulyator proqramı istifadəyə verilib

UEFA 2018-2019-cu il mövsümündə Millətlər Liqasındakı çıxışları sayəsində hansı komandaların Avropa çempionatının təsnifat mərhələsinin pley-off oyunlarına vəsiqə qazana biləcəyini başa düşməkdə azarkeşlərə kömək məqsədilə simulyator proqramı hazırlayıb. Noyabrın 20-də Avro-2020-nin final mərhələsinə vəsiqə qazanacaq 24 komandadan 20-sinin adı məlum olacaq. Təsnifat mərhələsinin 10 qrupunda ilk iki yeri tutan komanda gələn yay keçiriləcək final mərhələsinə adlayacaq. Digər dörd komanda isə 2020-ci ilin martında keçiriləcək Avropa çempionatının təsnifat mərhələsinin pley-off oyunlarından sonra müəyyənləşəcək.

Komandaların pley-offda oynamaq hüququnu necə qazanacaqlarını başa düşməkdə azarkeşlərə və mediaya kömək məqsədilə UEFA istifadəçilərin qurduğu ssenarilər əsasında pley-off oyunlarına hansı komandaların vəsiqə qazanacağını göstərən simulyator proqramı hazırlayıb.

Pley-off oyunlarında 2018-2019-cu il mövsümündə Millətlər Liqasındakı çıxışlarına əsasən altı komanda - konkret olaraq, UEFA Millətlər Liqasının finala vəsiqə qazana bilməmiş qrup birinciləri və yarışın reqlamentinə uyğun olaraq, vəsiqə qazanmış qrup qaliblərini əvəzləyən komandalar rəqabət aparacaq.

Əvvəlki pley-off oyunlarından fərqli olaraq, bu dəfə pley-off qarşılaşmaları "uduzan çıxır" prinsipi əsasında keçiriləcək. Hər "pley-off cığırı"nda komandalar UEFA Millətlər Liqasının ümumi reytinq cədvəlinə əsasən 1-dən 4-dək sıralanacaq. Pley-off üçün püşkatma noyabrın 22-də keçiriləcək. Hər finalın qalibi Avro-2020-yə vəsiqə qazanacaq.

## Futbol akademiyalarının koordinatorları və məşqçiləri ilə görüş

Xəbər verdiyimiz kimi, AFFA uşaq futbolunun inkişafı, aşağı yaş qrupları üzrə milli komandalar üçün oyunçuların hazırlanması məqsədi ilə "Elit-məşq" layihəsinə start verib. Bununla əlaqədar AFFA-nın inzibati binasında Premyer Liqada iştirak edən klubların futbol akademiyalarının koordinatorları və məşqçiləri ilə görüş keçirilib.

Aşağı yaş qruplarından ibarət Azərbaycan yığma komandalarının koordinatoru, layihənin rəhbəri Miloş Velebit çıxış edərək layihə və fitnes-testlər barədə ətraflı məlumat verib.

Məşq prosesləri üçün hazırlanmış videomaterial iştirakçılara göstərilib. Sonra məşqçiləri maraqlandıran məsələlər müzakirə olunub, suallar cavablandırılıb.



# Dünya – idmanı

## Dördqat dünya çempionu rinqə qayıdır

Boks dünyasının əfsanəsi, ağır çəkidə keçmiş dünya çempionu Evander Holifild yenidən rinqə qayıdır. Oktyabr ayının 19-da 57 yaşı tamam olacaq keçmiş boksçu gələn il Yaponiyada təşkil olunacaq döyüşdə qüvvəsini sınamaq niyyətindədir. Lakin onun hansı idmançı ilə rinqə çıxacağı hələ ki, məlum deyil. Bu barədə TMZ kanalına müsahibə verən Holifild deyib: "Mən həmin görüşə heç bir məbləğə görə hazırlaşmıram. Məqsədim odur ki, Yaponiyada bir daha əmin olsunlar ki, mən dördqat dünya çempionu kimi hələ də formadayam. Təşkilatçılara üzümü tutub deyirəm ki, əldə olunan gəlirin hamısı xeyriyyə məqsədilə xərclənəcək".



Məlumat üçün bildirək ki, sonuncu dəfə Evander Holifild 2011-ci ildə rinqdə döyüşüb. Danimarkalı Brayan Nilsenlə görüşdə o, rəqibini 10-cu raundda nokaut edərək, qələbə qazanıb.

## Londonlu kapitanın əlçatmaz arzusu




İngiltərə mili komandasının və "Tottenhem"in hücumçusu Harri Keyn komandasından narazıdır. Kapitan artıq klub rəsmiləri ilə görüşdə, onlara öz şərtlərini bildirib. Bu barədə Keyn KİV-nümayəndələrini məlumatsız qoymayıb. O, deyib: ""Tottenhem" mənə çox doğmadır. Bu klubla bütün dünyada böyük nüfuz qazanmışam. Hər dəfə "ən yaxşı futbolçu" nominasiyasında namizəd kimi göstərilirəm. Lakin namizəd deyil, qalib olmaq istəyirəm. Belə düşünürəm ki, Çempionlar Liqasında qalib olmasaq, həmin mükafata kənardan baxmalı olacağam. Bu, mənim "Tottenhem"lə sonuncu sınağım olacaq. Əgər qalib ola bilməsək, klubu tərk edəcəyəm. Avropanın top-klublarında çıxış etsəm, bəlkə də, arzum həyata keçəcək. Belə etməsəm, şansımı əldən vermiş olacağam. Vaxt keçir, hər şeyi öz məqamında həll etmək lazımdır".

Qeyd edək ki, 26 yaşlı Harri Keyn 2011-ci ildən etibarən "Tottenhem"in heyətində çıxış edir.



***Şaquli***

2. Rusiyada idman təşkilatı, 5. Atletika və üzgüçülükdə məsafə, 7. Rusiya Hokkey Liqasının təmsilçisi, 8. İspaniya millisinin 16 yaşlı futbolçusu, 9. "Qolden Steyt Uoriors"un hokkeyçisi...Qrin, 12. Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər, 14. Atçılıq idmanında növ.

***Üfüqi***

1. Belarusda idman qəzeti, 3. Seneqallı futbolçu, 4. Virtual idman növü, 6. "Zalsburq"un asiyalı ulduzu, 9. "Qarabağ"ın Avropa Liqasındakı rəqibi, 10. Azərbaycan futbolunun əfsanəsi...Banişevski, 11. "Mersedes"in rəhbəri, 13. Premyer Liqa təmsilçisi, 15. Cüdoda ən yüksək xal.



## Novak Cokoviç: "Sumoçu ilə zarafat etmək olmaz"

Son dövrlərdə dünya şöhrətli ulduz atletlər çıxış etdikləri idman növlərində əldə etdikləri uğurlarla kifayətlənmir, diqqətləri digər sahələrdə öz üzərlərinə çəkməyə çalışırlar. Dünyanı bir nömrəli tennisçisi Novak Cokoviç çıxış etdiyi idman növünü bir müddətlik kənara qoyaraq, özünü sumoda sınayıb. O, Yaponiyalı nəhəng rəqibi ilə qurşaq tutub. Lakin onların bu zarafatı cəmi bir neçə saniyə davam edib. "Mən hündür, rəqibim isə ağır idi. Maraqlı bir görüş oldu. İndi bildim ki, sumoçu ilə zarafat etmək olmaz. Bu görüş həyatımda ən gözəl və yaddaqalan xatirə olacaq", - deyə serbiyalı tennisçi bildirib.

Xatırladaq ki, bir müddət əvvəl eyni qarşılaşma futbolçu və sumoçu arasında da olmuşdu. Almaniya millisinin keçmiş üzvü Lukas Podolski Yaponiyada sumoçu ilə "dohyo"da üz-üzə gəlmişdi.



## olimpnews.az - sizin saytınız






## Mətbuat xidmətinin rəhbəri mərcdə uduzdu

Rusiyanın SSKA basketbol klubunun üzvü Nikita Kurbanov klubun mətbuat xidmətinin rəhbəri Nikolay Çınkeviçin saçlarını kəsib. Səbəb tərəflər arasında mərc olub. Belə ki, ötən mövsümün sonlarında Nikolay Çınkeviç "klubumuz Avroliqanın çempionu olsa, saçlarımı komandanın üzvlərindən biri tamamilə kəsəcək" - deyə bildirmişdi. Əks halda o, SSKA basketbolçularından birinin eyni aqibəti gözlədiyini demişdi. Lakin mətbuat xidmətinin rəhbəri bu mərcdə uduzdu. Çünki, SSKA Avroliqanın finalında Türkiyənin "Efes" (91:83) klubuna qalib gələrək, qitə yarışında qızıl mükafata layiq görülüb.

"Olimpiya dünyası" qəzetinin kollektivi iş yoldaşları Aslan Şirəliyevə, əzizi

**Safura xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.